# Son zəng, son döyüş və heç vaxt gerçəkləşməyəcək son yuxu...

## Avar xalqının şəhid oğlu hərbi forması və Azərbaycan uğrunda mücadiləsi ilə həmişə fəxr edirdi

**Zaqatala şəhəri-Car kəndi yolundan bir az sola - Taxtalar kəndinə dönəndə qarşımıza çıxan çeşmə başında ayaq saxladıq. Hər yanda səliqə-sahman, mənəvi-irfani ab-hava duyulur. Bulağın üstü şəhidlərə xatirə abidəsi kimi düzəldilib. Mərmər lövhədən üç bahadır boylanırdı: Sulxayev Hacımurad Saleh oğlu, Kusayev Nemət Həbibullah oğlu və Serov Mütəllib Arif oğlu. Mübariz avar xalqının Azərbaycanın azadlığı uğrunda canlarını qurban vermiş üç igid övladı...**



Ölməz ruhlarına dualar edib sərin sudan içdik. Onlar da Vətənin alışan qəlbinə su səpmək, azadlıq yanğısına çarə qılmaq üçün haqq savaşına qalxdılar. Və bu müqəddəs yolda uca Haqqa qovuşdular - Ağdərə, Tərtər və Füzuli cəbhələrində şəhidlik zirvəsinə yüksəldilər. Qəhrəmanlarımızdan birinin - Mütəllib Serovun həyat və döyüş yoluna nəzər salaq.

"Elə bil mənə yuxu kimi gəlir, çox təsirli, acı bir yuxu kimi... Hərdən oğlumun həlak olmasına inanmıram. Elə hiss edirəm ki, hərbi xidməti başa vurub geri qayıdacaq, bizi sevindirəcək, hərdən belə fikirləşirəm... Mütəllib başqa uşaq idi, böyüklə böyük, kiçiklə kiçik kimi rəftar edirdi. Kənddə, rayonda hamı onun xoş xasiyyətindən danışırdı... İndi isə balam yoxdu..." - Arif kişi hələ də oğlunun yoxluğuna inanmaq istəmir, dərin fikirlərə dalaraq müharibənin qara buludlarından nəm çəkən baxışlarını uzaqlara dikir.

O, 2019-cu il oktyabrın 1-də həqiqi hərbi xidmətə yollanmışdı. Əvvəlcə Gəncə şəhərində - Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində təlim keçib. Hərbi anddan sonra digər fiziki hazırlıqlı əsgər yoldaşları ilə birlikdə Cəlilabad rayonuna - Göytəpədəki xüsusi təyinatlılar taboruna göndərilir. Erməni işğalçılarının təxribatları zəminində 2020-ci il sentyabrın 27-də başlayan Vətən savaşında könüllü şəkildə ön cəbhədəki qızğın döyüşlərə atılıb. Mərd, cəsur, peşəkar xüsusi təyinatlılarımız yağı düşmənin gözünə dik baxaraq Füzuli istiqamətində döyüş mövqeləri seçiblər. İlk andan işğalçılarla ölüm-dirim müharibəsinə girib 30 il ərzində gücləndirilmiş səngərlərin içərilərinə doğru irəliləyərək onların canlı qüvvəsini, texnikasını, hətta yerüstü sipərlərini və yeraltı anbarlarını məhv ediblər. Mütəllibin xidmət etdiyi tabor qısa müddətdə müharibənin ən qaynar nöqtələrində xeyli sayda yaşayış məntəqəsini, kəndləri, qəsəbələri, mühüm postları düşməndən təmizləyib.

Serovlar ailəsi hərbi xidmət müddətində oğulları ilə vaxtaşırı əlaqə saxlayıblar. Mərziyyə ana: "O bizə əsgərliyinin öz qaydasında keçdiyini bildirirdi. Andiçmə vaxtı yanına getmişdik. Mütəllib hərbi formada olduğuna görə qürur duyurdu. Deyirdi ki, "artıq müsəlləh əsgərəm. Ali Baş Komandanımız nə əmr versə, ona tabeyik. Biz bununla fəxr edirik".

2020-ci ilin avqust ayınadək orada hərbi xidmət keçdi. Sonra xeyli müddət əlaqə qura bilməyib çox narahat olduq. Nəhayət, sentyabr ayının əvvəllərində danışa bildik. Söylədi ki, artıq cəbhə bölgəsindədir, vəziyyəti yaxşıdır. Sonuncu zəngi sentyabr ayının ortalarında oldu. Dedi ki, Allah hamımızı qorusun, biz də sizi, Azərbaycanımızı qoruyuruq. Bu, Mütəllibin son sözləri, son zəngi idi. Və onlar döyüşə getdilər...", - deyə Arif kişi kövrək notlu söhbətini davam etdirir...

Rəşadətli əsgərin valideynləri həmin zəngdən sonra hiss etmişdilər ki, oğulları cəbhənin ən qaynar nöqtəsindədir. "Son vaxtlar yuxuda görürdüm ki, gah əsgər formasında, gah bəy formasında, gah da ki, əlində gül dəstəsi ilə həyət qapısını açaraq gülə-gülə üstümüzə gəlir... "Ana, mən əsgərliyi başa vurmuşam, o qıza elçi get" deyir" - Mərziyyə xanım dərdi-dərdli hıçqırır.

Son zəng, son döyüş və heç vaxt gerçəkləşməyəcək son yuxu...

Mütəllib Arif oğlu Serov 2000-ci il iyunun 9-da Zaqatala rayonunun Ziliban kəndində dünyaya göz açıb. Rayondakı Peşə Liseyində texniki elmlərə yiyələnib. Arzusu ali təhsilli mütəxəssis olmaq idi. Lakin istəyinə nail ola bilmədi...

2020-ci il oktyabrın 10-da döyüş tapşırığını yerinə yetirərkən aldığı qəlpə yarasından şəhadət məqamına yetişdi. Zaqatala rayonunun Car kəndində torpağa tapşırıldı.

Tabordan yaralanıb sağ qalan döyüşçü yoldaşlarının verdiyi məlumatlara görə, oktyabr ayının 7-də səhərdən axşamadək Füzuli istiqamətində işğal altındakı torpaqların azad edilməsi uğrunda çox ağır döyüşlər olub. Bu döyüşlərdə düşmənin güclü müqaviməti ilə qarşılaşan xüsusi təyinatlılarımız tarix yazıblar. Cəbhə xəttini yaran Mütəllib və daha 8 xüsusi təyinatlı BMP texnikası ilə düşmənə yaxınlaşıb və müxtəlif çaplı silahlardan atəş açaraq, onları mövqelərdən uzaqlaşdırıblar. Lakin bu zaman yeraltı istehkamdan hərbçilərimizə tərəf qumbaralar atılıb. Yaralılar digər hərbçilərin səyi nəticəsində döyüş meydanından çıxarılıblar. Bütün səylərə baxmayaraq, vətənpərvər gənc döyüşçümüz - Mütəllib və silahdaşlarının həyatını xilas etmək mümkün olmayıb.

Mütəllibin qəhrəmanlıqları dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Cəsur döyüşçü", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Şücaətə görə" medalları ilə təltif olunub.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 27 oktyabr (№ 237).- S.10.